# F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASININ İNFORMASİYA FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Fidan Bünyətzadə**
*F.Köçərli adına Respublika Uşaq Kitabxanasının informasiya fəaliyyətinin əsas istiqamətləri*
*fidan_bunyatzada1497@mail.ru*

***F.Köçərli adına Respublika Uşaq Kitabxanasının informasiya fəaliyyətinin əsas istiqamətləri***
***Xülasə:****Məqalədə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının informasiya fəaliyyətinin inkişaf istiqamətləri məsələsinə baxılmışdır. Kitabxana fondunun sistemləşdirilməsi və komplektləşdirilməsindən bəhs edilmişdir. Fondun təşkil edilməsi və onun səmərəli fəaliyyət göstərməsinin vacibliyi irəli sürülmüşdür.*
***Основные направления информационной деятельности Республиканской детской библиотеки им.***
***Резюме:*** *Ф. КочарлиВ статье рассматриваются вопросы развития информационной деятельности Республиканской детской библиотеки им. Ф. Кочарли. Обсуждаются вопросы систематизации и пополнения библиотечного фонда. Выдвинута основа фонда и важность его эффективного функционирования.*
***The main directions of information activities of the Republican Children's Library.***
***Summary:*** *F. Kocharlihe article considers the issues of development of information activity of the Republican Children's Library named after F.Kocharli. The systematization and completing of the library fund are discussed. The foundation of the Fund and the importance of its efficient functioning are put forward.*
***Açar sözlər:*** *uşaqkitabxanası, informasiya, kitabxanaxidməti, fond*
***Ключевые слова:*** *детская библиотека, информация, библиотечный сервис , фонд*
***Keywords:*** *children's library, information, library service, fund*

Bildiyimiz kimi, kitabxanaların qarşısında müasir informasiya mühitində biliklərin idarə olunması, insan və cəmiyyət arasında informasiya əlaqələrinin qurulması, inkişaf etdirilməsi və yeni bu istiqamətdə yeni üsul və vasitələrin yaradılması kimi mühüm vəzifələr dayanır. Artıq bizə məlumdur ki, qloballaşan dünyamız "elektron inqilab" mərhələsinə qədəm qoymuşdur. Qeyd olunan bu böyük inqilabi prosesin formalaşmasında mədəniyyətimizin zəngin xəzinəsi hesab edilən kitabxanalar məsuliyyət daşıyırlar.

Hazırki dövrümüzdəölkəmizdə geniş kitabxana-informasiya şəbəkəsinə malik olan kitabxanalar fəaliyyət göstərir. Kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi, Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olması ilə bağlı məsələlərinin həll



edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalanmışdır. Sərəncam Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birgə fəaliyyəti əsasında həyata keçirilir.

Qədim zamanlardan bəri ölkəmiz zəngin milli-mənəvi sərvətləri, xüsusən də bilik mənbələri hesab edilən kitabxanaları ilə məşhurdur. Belə sayılıb-seçilən kitabxanalardan biri də F.Köçərli adına Respublika Uşaq Kitabxanasıdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası respublikada uşaq kitabxanaları üzrə elmi metodik mərkəz hesab edilir. Bu kitabxana Azərbaycanın mədəni irsinin qorunub saxlanması və milli-mədəni sərvətlərinin mühafizə olunaraq digər nəsillərə ötürülməsi yönündə böyük işlər görmüş mədəniyyət müəssisələrindən biridir. Qeyd etmək lazımdır ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası dünyanın bir çox öndə gedən kitabxanalarının iş təcrübəsi ilə əlaqədar yaradılmışdır vəbu iş təcrübəsindən istifadə edərək uşaqlara kitabxana xidmətinin təşkil olunmasında ən yeni və inkişaf etmiş metod və üsullar tətbiq etməkdədir. Bildiyimiz kimi F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kütləvi kitabxana fondunun bazası əsasında yaradılmışdır. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ədəbiyyatşünas, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi sayılan Firidun bəy Köçərlinin adını daşıyır.

Respublikada Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addımdır. Belə ki, görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Xüsusilə qeyd edilməlidir ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası respublikada uşaqlara xidmət edən kitabxanalar üçün elmi-metodik mərkəz sayılır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında fondunun təşkil edilməsi və onun səmərəli fəaliyyət göstərməsi burada əhatə olunan çap əsərlərinin məzmun xarakteristikasından asılı olaraq hər il dəyişir. Bizə məlumdur ki, çap əsərləri sistemləşdirilir və məqsədyönlü şəkildə təsnifləşdirilərək kitabxana fondunu təşkil edir. Sənədlərin məzmun əlamətlərindən asılı olaraq təsnifat cədvəllərinin şöbə və

bölmələri rubrikalar üzrə düzgün yerləşdirilməlidir. Bunun üçün isə sistemləşdirməni xüsusi prinsiplər əsasında həyata keçirmək lazımdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunda ədəbiyyatın sistemləşdirilməsi metodikası iki hissəyə ayrılır: ümumi və metodik hissəyə ayrılır. Qeyd edilməlidir ki, bu metodik üsullar təsnifat cədvəllərinə əsasən həyata keçirilir. Belə ki, təsnifat cədvəllərinə müvafiq olaraq kitabxana fondunda ədəbiyyatlar təsnifləşdirilərkən onların yeri kitab rəflərində müəyyən edildikdən sonra fondda öz yerini alır, bəzi növ ədəbiyyatın təsnifləşdirilməsi isə nümunəvi bölgülər üzrə aparılır. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunun daha səmərəli təşkil etmək üçün kitabxana müəyyən istiqamətlər üzrə fəaliyyət göstərir:

1. Kitabxana əvvəlki illərdə olduğu kimi respublikanın bir sıra uşaq kitabxanalarına əməli və metodik köməklik göstərir;
2. Metodik-biblioqrafik vəsaitlər hazırlayır, tövsiyə ədəbiyyatının siyahısını tərtib edir;
3. Mədəniyyət və Turizm, Ekologiya və Təbii Sərvətlər, Təhsil Nazirliyi və digər dövlət orqanları ilə sərgilər təşkil edir.
4. Yubilyar uşaq yazıçıları və şairlərinə həsr olunan görüşlər keçirir;
5. Bəzi uşaq jurnallarının təqdimatını keçirir və.s. Bu fəaliyyət istiqaməti sayəsində F.Köçərli adına Uşaq Kitabxanasının fondunun istifadə səmərəliliyi daha da artmışdır. Qeyd edək ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondu haqqında məlumatlar kitabxananın sistemli kataloqunda əks etdirilməsi yolu ilə həyata keçirilir. Lakin sistemli kataloqdandaha çox elmi-sahəvi kitabxanalarda istifadə olunduğu üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondu haqqında məlumatları bu kataloqda əks etdirmək mümkün deyildir. Bu da bir sıra çətinliklərə yol açır. Məhz buna görə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunda yerləşən ədəbiyyatlar əsasən məzmun xüsusiyyətlərinə görə təsnifləşdirilir. Təsnifat prosesi zamanı ən mühüm materiallar üçün təkrar əks etdirmə üsulu tətbiq olunur. Buna görə dəkitabxananın fondunda uşaqların estetik tərbiyəsi, ictimai-siyasi tərbiyə, hərbi-vətənpərvərlik, ölkəşünaslıq, əmək tərbiyəsi, əxlaq-hüquq tərbiyəsinə dair ədəbiyyatın sistemləşdirilərək kataloqda əks etdirilməsi mühüm əhəmiyyət daşıyır.

F.Köçərli adına Republika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması və dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Belə ki, bir çox dünya kitabxanaları ilə əlaqə yaradılmış, onların iş təcrübələrindən istifadə etməklə uşaqlara kitabxana xidmətində ən müasir metod ve formalar tətbiq olunmuşdur. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təsis etdiyi "Göyqurşağı" Uşaq jurnalı məktəblilərin dünya görüşünün inkişafında, onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsində, təhsilə marağın artmasında böyük rol oynamaqla daim diqqət mərkəzində olmuşdur.



Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkili ölkəmizdə ən böyük oxucu qrupu hesab edilən uşaqlara kitabxana xidmətini günün tələbləri səviyyəsinə qaldırmaq, onun forma və məzmununda yeni keyfiyyətləri aşkar edib inkişaf etdirmək, uşaqlara xidmət göstərən kitabxanaların işini əlaqəli şəkildə qurmaq, koordinasiya etmək, elmi cəhətdən əsaslandırmaq üçün böyük imkanlar açdı.

Gənc nəslin yetişməsində və inkişaf etməsində böyük rolu olan bu kitabxananın fondunda toplanmış uşaq ədəbiyyatının rəngarəng və zəngin olması vacib məsələdir. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının fəaliyyəti dövründə fondunu mütəmadi olaraq uşaq ədəbiyyatı və xarici uşaq yazıçılarının əsərləri iləə daima zənginləşdirmişdir. Kitabxana oxuculara informasiya xidmətini təşkil etmək üçün fondun düzgün komplektləşdirilməsinə xüsusi diqqət yetirir.

Kitabxananın fondunda görkəmli uşaq şair və yazıçıların əsərləri, dövlət xadimlərinin vətənpərvərliyə aid materialları, "Böyük Vətən müharibəsi", o cümlədən, "20 Yanvar"və Dağlıq Qarabağa aid həm bədii həm də dövri mətbuat materialları toplanmışdır. Kitabxana yaranan çətinliklərə baxmayaraq kitabxana öz fondunun komplektləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirir, oxucuların yaş, təhsil, peşə xüsusiyyətlərini əsas götürərək lazım olan ədəbiyyatı komplektləşdirir.

Ümumiləşdirərək belə söyləmək olar ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası geniş təcrübi həyat yolu keçmişdir. Kitabxana öz maddi-texniki bazasını xeyli dərəcədə möhkəmlənmişdir. Fəaliyyət istiqamətlərinin metodik baza kimi fəaliyyəti daha da genişlənmişdir. Kitabxana bu gün də işini günün tələbləri səviyyəsində həyata keçirir.

**Ədəbiyyat**


1. "Kitabxana işi haqqında" Azərbaycanda Respublikasının Qanunu //Azərbaycan, 1998, 19 iyun
2. Xələfov A. Kitabxanaşünaslığa giriş.- B.:Bakı Universiteti nəşriyyatı,2001.-398 s.
3. İsmayılov X. İ Kitabxana işinin təşkili idarə olunması: dərslik.- Bakı Nurlar.- 2009.-393 s.
4. Xələfova S.Uşaqların vətənpərvərlik tərbiyəsində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının rolu.- Kitabxanaşünaslıq və biblioqrafiya.-2003.- №2 - S. 82-87.
5. Sadıqova S.A. K. Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasının metodiki və biblioqrafik materialları: ( 1965-1995).- B.: Elnur- P firması, 1999.- 152 s.
6. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının toplu hesabatları: 2018-ci il.